Adnan Nur Baykal

İDARƏÇİLƏR ÜÇÜN YENİ BİR BAXIŞ:

# MUSTAFA KAMAL ATATÜRKÜN LİDERLİK SİRLƏRİ

Tərcüməçi:
Şərafət Haqverdi

qanun nəşriyyatı

Adnan Nur Baykal

Yöneticiler için Yeni bir Bakış:

# MUSTAFA KEMAL ATATÜRK'ÜN LİDERLİK SIRLARI

Kitab 50 fəsildən ibarətdir və bu fəsillərin hər biri Mustafa Kamalın şəxsi keyfiyyətlərindən birinə həsr olunub. Hər fəsil türk xalqının dahi övladının portretini tamamlayan bir fraqmentdir. Bura Atatürkün müxtəlif çıxışlarından konkret liderlik keyfiyyətini vurğulayan sitatlar, çağdaşlarının onun haqqında xatirələri daxildir. "Mustafa Kamal Atatürkün liderlik sirləri" idarəçilər üçün stolüstü kitab, idarəetmə sənəti üzrə sorğu kitabçasıdır. Bestsellerə çevrilən kitab Türkiyədə 33 dəfə nəşr olunub.

# MÜNDƏRİCAT

Təkmilləşdirilmiş yeni nəşrin ön sözü....................................6
33-cü nəşrin ön sözü....................................................................9
İdarəçilik və liderlik xüsusiyyətləri.......................................10
Başlayarkən...................................................................................12
Seçilmiş sözlər, hekayələr və prinsiplər...............................14
Özünüzü sınayın!.................................................................. 305
Son söz .........................................................................................308
Bitirərkən ................................................................................... 312

# Təkmilləşdirilmiş Yeni nəşrin Ön sözü

1999-cu ildə nəşr edilən "Mustafa Kamal Atatürkün liderlik sirləri" adlı ilk kitabım 23 dəfə dərc olundu və altmış mindən çox nüsxə satıldı. Mən həmin tarixdən etibarən Atatürklə bağlı kitabları daha çox oxumağa davam etdim.

Niyə davam etdim? Kitabımın yayınlanmasından bir müddət sonra Mustafa Kamal Atatürkün kim olduğunu, bu ölkə üçün nələr etdiyini bilmədən şüursuz şəkildə onun xatirəsini təhqir etdilər.

Görəsən, mənim tanıdığım, kitabını yazdığım insanla bu hücuma məruz qalan insan eynidirmi, deyə şübhəyə düşdüm. Yanlış bir şey yazmamaq üçün Atatürk haqqında müxtəlif təbəqələrdən olan insanlar tərəfindən yazılmış yüzdən artıq kitab oxudum. Bu arada qarşıma Mustafa Kamal Atatürkün mənəvi vəsiyyətnaməsi çıxdı:

"Bir gün Atatürk, sanki vəsiyyət edirmiş kimi, həzin, təsirli bir səslə deyir:

– Yoldaşlarımdan tək bir diləyim var. Ölümümdən sonra məni millətə unutdurmasınlar. Bu qədər sevdiyim bir millətin məni unutması ruhum üçün ən acı bir əzab olar".[1]

Görəsən, onu tam olaraq oxucuya çatdıra bildimmi, deyə düşündüm. Öz yazdığım kitabı dəfələrlə oxudum. Mustafa Kamal Atatürklə bağlı oxuduğum kitablardan yeni məlumatlar əldə etdim. Bu kitablardan çıxan Atatürk də eyni insan idi; lakin bu məlumatlar əlavə olunduqdan sonra təsvir daha aydın görünməyə başlayır, rəngi gerçəyə daha çox yaxınlaşırdı.

[1] Bu mənim süfrəmdir, Oğuz Akay, səh.653

Yeni oxuduğum kitablardan əldə etdiyim məlumatları kitaba əlavə edə bilərdim. Lakin belə etmədim. Atatürkün kitabımda yer alan sözlərini, anlatdıqlarını xüsusi bir üsul tətbiq etmədən təbii şəkildə seçdim. Yeni kitabıma onu ən yaxşı təsvir edən, nüansları ən gözəl şəkildə verən, Mustafa Kamalın liderliyini ən doğru şəkildə ortaya qoyan məlumatlar daxil edildi. Dərmanlarda "təkmilləşdirilmiş yeni formul!" olduğu kimi, kitabımın bu nəşri də "təkmilləşdirilmiş yeni nəşr" oldu.

Kitabımı oxuduğunuz zaman Mustafa Kamal Atatürkü sanki canlıymış, bu gün yaşayırmış kimi görəcək, az qala, əllərinizlə tuta biləcəksiniz. Əslində Atatürk daim hərəkətli, canlı, yerində durmayan və gündəmdə olan biridir. Səbəbini bilirsinizmi? Bilmirsinizsə, özü söyləsin:

"İki Mustafa Kamal var: biri mən, fərd olan, fani olan Mustafa Kamal. İkinci Mustafa Kamaldansa "mən" deyə bəhs edə bilmərəm. Ondan ancaq "biz" deyə danışa bilərəm. O Mustafa Kamal isə sizlərsiz, yəni ətrafımda olanlar, məmləkətin hər bucağında çalışan kəndlilər, aydın fikirli, ziyalı, vətənpərvər, milliyyətçi vətəndaşlar. Mən də onların xəyalını müəyyən edirəm, onların xəyalını gerçəkləşdirməyə çalışıram. O Mustafa Kamal ölməz! O, türk millətinin ehtiyacları və getdikcə oyanan şüuru ilə bərabər inkişaf edərək əbədi yaşayacaq. O "biz" deyə ifadə edə biləcəyim Mustafa Kamaldır".[1]

Həqiqətən də, Mustafa Kamal Atatürk Türkiyənin gələcəyi, sivilizasiyanı göstərən kompasıdır. Tariximizi bilmədikcə Mustafa Kamal bir meteor, bir göy daşı kimi görünür. Doğrudan da, belədirmi?

Bir az da irəli gedib daha yaxından baxsaq, Atatürk türklərin 1000 illik yazılı idarəçilik ənənəsinin ən önəmli təmsilçisi və ən önəmli tətbiqçisidir. 1070-ci illərdə Qutadqu-biliyi yazan Yusif Xas Hacibla başlayan "Yazılı türk idarəçilik ənənəsi"nin zirvəsidir.

Bir araşdırmamda Yusif Xas Hacibla Mustafa Kamal Atatürkün söylədiklərini müqayisə etmişdim. Burada sadəcə üç nümunə verəcəm.

İnsana dair mövzunu nəzərdən keçirək:

[1] Ankaralının dəftəri, Mahmud Soydan, səh.159

Yusif Xas Hacib belə deyib: “İnsanlara faydalı ol, faydasız insan dirilər arasında bir ölüdür. Başqalarına faydalı olan insan xalqın lideridir”. Atatürk də buna cavab olaraq, “Millətə faydalı olduqca, ona müsbət yolda xidmət etdikcə onun sevgisini qazana bilərsiniz” deyib.

İdarəçilik ənənəmizdə boşboğazlıq varmı?

“Sözün faydası sözü işə tətbiq etməkdir”, – deyib Yusif Xas Hacib. Atatürkün cavabı bu fikri tamamlayıb:

“İndi danışmaqdansa, iş görmək vaxtıdır. Bundan sonra bizim üçün fəaliyyətdə olmaq, hərəkət etmək və irəliləmək lazımdır”.

Günümüzdə vaxt çox sürətlə irəliləyir, zaman qiymətlidir, deyirik.

“Bu həyatın hər günü çox qiymətlidir, onu boş yerə sərf etmək doğru deyil” deyən Yusif Xas Hacib 1000-ci illərdə gələcəyi görüb. Atatürk də, demək olar, yüz il öncə sürətin əhəmiyyətini vurğulayıb: “Keçən zamana nisbətən daha çox çalışacağıq. Daha az vaxtda daha böyük işlər bacaracağıq”.

Odur ki, Mustafa Kamal Atatürk bir göy daşı deyil, bizdən biridir və ən dəyərlimizdir. İnsan iki dəfə ölür. Birincisi, son nəfəsini verərkən. İkinci ölümü isə onu xatırlayan son insan öləndə gerçəkləşir. Bir hədisdə “Kim bir möminin tarixini yazarsa, sanki ona həyat vermiş kimidir” deyilir. Haqqında bu qədər danışıldığına, bu qədər kitablar yazıldığına görə, ölkəsinə, insanına bu qədər inanan Mustafa Kamal gerçəkdən yaşayır. “Fikirlər zor və şiddətlə, top-tüfənglə əsla öldürülə bilməz”. Mustafa Kamal Atatürk də bir fikir, bir düşüncədir. Yaşayır və yaşayacaq.

Üstəlik, bu, bir liderlik kitabıdır. Liderliyin də sadəcə Mustafa Kamal Atatürkə ünvanlandığını düşünməyin. Kitabımın bir də praktik tərəfi var. Şirkətlərdə, müəssisələrdə, hətta siyasətdəki insanların lider olub-olmadıqlarını bu kitabda bir liderdə olması lazım gələn 50 özəlliyə görə dəyərləndirə bilərsiniz. Bunu edərkən də istər-istəməz Atatürkü göz önündə canlandıracaqsınız. Söyləməsi məndən, sürprizlərə açıq olun.

**Adnan Nur BAYKAL**

Kalamış, 14 noyabr 2017

# 33-cü nəşrin ön sözü

İki cür insan var: Birincisi, öz mənfəəti uğrunda hər şey edə bilir. İkincisi isə ölkəsinin mənfəətini özününkündən üstün tutur. Ölkəsinin mənfəəti ilə öz maraqlarını uzlaşdıra bilir.

Bəşəriyyəti irəli aparan ikinci qəbil insanlardır. Həmin adamlar unudulmur, zamana yenilmir və hər zaman gündəmdə qalır.

Bu cür insanlara bir nümunə də babam Nuri Dəmirağdır. O, Cümhuriyyəti dəstəkləyənlərdəndir. Ziya Şakir 1947-ci ildə "Nuri Dəmirağ kimdir?" adlı bir kitab yazıb. Bir qayda olaraq, iş adamları parlayar, sonra da yox olarlar. Lakin Nuri Dəmirağ ölkəsinin mənfəətinə çox əhəmiyyət verdiyi üçün bu kitab 2011-ci ildə 2-ci, 2018-ci ildə isə 3-cü dəfə təkrar nəşr edildi.

Mustafa Kamal isə sadəcə xatırlanmır, bir məşəl kimi gələcəyə işıq salır və könüllərdə yaşayır.

**Adnan Nur BAYKAL**
Kalamış, 17 oktyabr 2022

# İDARƏÇİLİK VƏ LİDERLİK XÜSUSİYYƏTLƏRİ


1. *Açıq olmaq*........................................................................21
2. *Tabeliyindəki idarəçiləri yetişdirmək*...........................................27
3. *Məlumat və təcrübə sahibi olmaq*.............................................31
4. *Məlumat toplamaq bacarığı*.......................................................37
5. *Məlumatlandırma vərdişi*............................................................43
6. *Özünü tanımaq*...............................................................................47
7. *Cəsur olmaq*...................................................................................53
8. *Ətraf mühit şüuruna sahib olmaq*...............................................57
9. *Mətanətli olmaq*.............................................................................61
10. *Qarşısındakını dinləmək vərdişi*...................................................65
11. *Mücərrəd düşünə bilmək bacarığı*...............................................71
12. *Özbaşınalığa izn verməmək*...........................................................77
13. *Elastik ola bilmək*............................................................................83
14. *Yumor hissinə sahib olmaq*............................................................89
15. *Fədakar olmaq*.................................................................................93
16. *Realist olmaq*....................................................................................97
17. *Vəzifəyə can atmaq*.......................................................................103
18. *Etibarlı olmaq*.................................................................................109
19. *Özünə güvənmək*..........................................................................113
20. *Hazırlıqlı olmaq*.............................................................................119
21. *Hədəfə doğru gedən yolda qətiyyətli olmaq*.............................125
22. *Hesab adamı olmaq*.......................................................................131
23. *İnandırma bacarığı*.........................................................................137